# Gənclər üçün
# Paris Sazişi



## Gənclər üçün Paris Sazişi

© Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF)
Azərbaycan, 2023 (ikinci nəşr)
İlk dəfə 2020-ci ildə nəşr edilmişdir.

**Müəlliflər:** Sara Konyak Qonsales və Emiliya Numer
**Texniki məsləhətçi:** Adrian Martinez
**Əlaqələndirmə:** Hanox Barlevi, İqlim Dəyişmələri və Fəlakət Riskinin Azaldılması üzrə Regional Mütəxəssis, UNICEF-in Latın Amerikası və Karib Hövzəsi üzrə Regional Nümayəndəliyi
**Dizayn:** Matias Daviron

**Azərbaycan versiyası:**
**Redaktə:** Firuzə Sultan-zadə, Pərvin Əzizli ("EkoSfera" Ekoloji-Sosial Mərkəzi İB)
**Redaktə işinə dəstək:** Rəna Şabanzadə (Gənc İqlim Elçisi), Günel Hacəliyeva (Gənc İqlim Elçisi)
**Dizayn:** Nərmin Orucova ("EkoSfera" Ekoloji-Sosial Mərkəzi İB)
**Tərcüməçi:** İsmayıl Cəbrayılov

Bu nəşr mənbəni (UNICEF) qeyd etmək şərtilə, yalnız tədqiqat, təşviqat və təhsildə istifadə üçün çoxaldıla bilər. Bu nəşr UNICEF-in əvvəlcədən yazılı icazəsi olmadan başqa məqsədlər üçün çoxaldıla bilməz. İcazələr üçün müraciətlər UNICEF Azərbaycana yönləndirilməlidir: baku@unicef.org

Bu nəşrdəki fikirlər müəlliflərin baxışlarını əks etdirir və UNICEF-in siyasətləri və baxışları ilə üst-üstə düşməyə bilər. UNICEF-ə məxsus olmayan hər hansı veb-sayta istinad edilməsi orada olan məlumatların və ya ifadə edilən fikirlərin düzgünlüyünün UNICEF tərəfindən təsdiqləndiyini ehtiva etmir.

Bu vəsaitin Azərbaycan dilində olan versiyası UNICEF Azərbaycan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşəbbüsü çərçivəsində tərcümə, adaptasiya və çap edilmişdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

AZE GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

"EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyi

unicef hər bir uşaq üçün



Gənclər üçün

# Paris Sazişi

Gənclər üçün uyğunlaşdırılmış dildə Paris Sazişi, onun əhəmiyyəti və bütün maddələri barədə daha dərin təsəvvür qazanın.



# Tədqimat

"Biz, gənclər olaraq, cəmiyyətin müxtəlif sahələrində dəyişiklik elçiləriyik. Biz **iqlim dəyişmələri ilə mübarizə tədbirlərindən** kənarda qalmırıq: bizim səsimiz getdikcə daha çox eşidilir və biz **tam iştirak etmək** hüququ tələb edirik. Əslində, bizim iştirakımız dövlət siyasətinin hazırlanması prosesinin mərkəzində yer almalı olan bir hüquqdur.

**Gənc iqlim fəalları üçün alətlər dəsti** planetimizin vəziyyətindən narahat olan və təşviqat apararkən və tədbirlər görərkən çətinliklərlə qarşılaşmış sizin kimi gənc fəallar üçün gənclər tərəfindən yaradılmışdır.

Bizim məqsədimiz sizi **faydalı və məlumatlı iştiraka** hazırlamaq üçün iqlim dəyişmələri ilə qlobal, regional və milli səviyyəli mübarizə tədbirlərinin istiqamətini təsvir edən aydın, konkret, asan başa düşülən məlumatları bölüşməkdir.

Kitabçalar bir-biri ilə əlaqəlidir və onları ardıcıllıqla oxuya və hər mövzu üzrə biliklərinizi tədricən dərinləşdirə bilməyiniz üçün müvafiq qaydada dizayn edilib. Bundan əlavə, ehtiyaclarınıza uyğun olaraq, onlara ayrı-ayrılıqda nəzər sala bilərsiniz.

## Bura daxildir:

**İqlim dəyişmələri ilə mübarizə alətləri:** İqlim dəyişmələri ilə mübarizə üzrə qlobal məqsədlər və Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləyişə nail olmaq üçün əsas alətlər, o cümlədən Paris Sazişi, milli səviyyədə müəyyən edilmiş töhfələr və digər alətlər.

**İqlim idarəçiliyi nədir?** İqlim idarəçiliyi və milli və beynəlxalq səviyyələrdə qərar qəbulu prosesi, o cümlədən İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC), onun tətbiqi və iştirak mexanizmləri barədə məlumat.

**Addım atmağa hazır olun!** Digər fəalların praktiki məsləhətləri və öz təcrübələrinə əsaslanan fikirləri iqlim gündəliyində iştirak etmək və ona təsir etmək üçün tələb olunan bacarıqlara yiyələnməyinizə kömək edəcək.

**Gənclər üçün Paris Sazişi:** Sazişin təfərrüatları, onun əhəmiyyəti və bütün maddələri sadə dildə.

**Gənclər üçün izahlı iqlim lüğəti:** Hər bir iqlim fəalının bilməli olduğu əsas anlayışlar və təriflər.

Bu kitabçada "gənclər" və "gənc insanlar" terminlərindən istifadə etdikdə, 15-24 yaşlı yeniyetmələr və gənclər nəzərdə tutulur.

| 0 - 17 | 10 - 19 | 15 - 24 | 10 - 24 |
|---|---|---|---|

# Mündəricat


4 Qısaltmalar və ixtisarlar
5 Giriş
7 Paris Sazişi niyə vacibdir?
9 Paris Sazişinin maddələri
13 Mənbələr




# Qısaltmalar və ixtisarlar

| | |
|---|---|
| **CMA** | **Paris Sazişinin Tərəflərinin Yığıncağı kimi çıxış edən Tərəflər Konfransı** |
| **TK** | **Tərəflər Konfransı (COP)** |
| **MGCY** | **BMT-nin Uşaqlar və Gənclər üzrə Əsas Qrupu** |
| **NDC** | **Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr** |
| **UNFCCC** | **BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC)** |
| **VBM** | **İtki və Zərər üzrə Varşava Beynəlxalq Mexanizmi** |
| **YOUNGO** | **BMT-nin İqlim Dəyişikliyi prosesləri üzrə rəsmi uşaq və gənclər təşkilatı** |



# Giriş

2015-ci ildə Fransanın Paris şəhərində qəbul edilmiş Paris Sazişi iqlim dəyişmələri ilə qlobal mübarizə fəaliyyətinin istiqamətini dəyişdi. O, dövlətləri iqlim dəyişikliyinin öhdəsindən gəlmək, onun müxtəlif təsirlərinə uyğunlaşmaq və inkişaf etməkdə olan ölkələrə adekvat dəstək təmin etmək üçün iddialı tədbirlərin göstərilməsi kimi vahid amal uğrunda bir araya gətirdi.

195 ölkə tərəfindən imzalanmış Saziş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının (Tərəflər Konfransı da adlandırılır) 21-ci sessiyasında qəbul edilib.

**Paris Sazişində və ya UNFCCC-də iştirak edən ölkələr Tərəflər adlandırılır.**

Bu Saziş Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin və DİM-lərin hədəflərinə çatmaq üçün əsas alətlərdən biridir. İqlim dəyişmələrinə cavab tədbirləri dayanıqlı inkişafa bərabər əlçatanlıq və yoxsulluğun aradan qaldırılması ilə yaxından əlaqəlidir. Ərzaq təhlükəsizliyinin qorunması və aclığa son qoyulması Sazişin prioritetidir. O, həmçinin bəzi xalqlar tərəfindən "Ana Yer Kürəsi" kimi qəbul edilən bütün ekosistemlərin (o cümlədən okeanların) və biomüxtəlifliyin qorunmasının əhəmiyyətini vurğulayır.

**Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini 22 aprel 2016-cı ildə imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya etmişdir.**

Saziş, ölkələri istixana qazlarını azaltmaq və cəmiyyətlərə və ekosistemlərə iqlim dəyişmələrinə daha yaxşı uyğunlaşmaqda kömək etmək üçün addımlar atmağa çağırır. İştirak könüllü xarakter daşıyır və ölkələr öz öhdəliklərinə əməl etmədiyi təqdirdə cərimə edilmir. Buna görə də, vətəndaş cəmiyyəti yerli və milli səviyyələrdə Sazişin icrasının monitorinqində çox mühüm rol oynayır.

## Müqavilənin yerinə yetirilməsini və şərtlərinə əməl olunmasını təmin edən 2 əsas orqan mövcuddur:

- Paris Sazişinin Tərəflərinin Müşavirəsi kimi çıxış edən Tərəflər Konfransı (CMA) - o, Sazişi imzalamış ölkələri təmsil edir, Sazişin icrasına nəzarət edən ali orqan kimi çıxış edir və onun effektiv icrasını təşviq etmək üçün zəruri qərarları qəbul edir.

- Sazişin Katibliyi - bu funksiyanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi yerinə yetirir və illik konfrans sessiyalarını təşkil edir, ölkələrdən hesabatları qəbul edir və onlara köməklik göstərir.



**Bu vaxt qrafiki Paris Sazişinin imzalanması ilə nəticələnən hadisələri əks etdirir:**

## 1992

Yer Kürəsi Sammiti əsasında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının yaradılması.

## 1997

3-cü Tərəflər Konfransı: ölkələr istixana qazlarının azaldılmasına yönələn Kioto Protokolunu qəbul edir.

## 2005

Kioto Protokolu qüvvəyə minir.

## 2007

13-cü TK: ölkələr Kioto Protokolunu əvəz edən yeni mətn üzərində işləməyə razılaşır.

## 2009

15-ci TK: hədəflərə nail olunmur; ölkələr sadəcə qlobal temperatur artımını 2°C-dək məhdudlaşdırmaq barədə razılığa gəlir, lakin 2050-ci ilədək hədəfləri müəyyən etmir. Ölkələr yeni razılaşmanın bağlanmasını 2015-ci ilə təyin edirlər.

## 2010

16-cı TK: ölkələr Kankun Razılaşmalarını qəbul edir. Texnologiya Mexanizmi tərəfindən Yaşıl İqlim Fondunun yaradılması təqdirəlayiqdir. Sənayeləşmiş ölkələrin iqlim dəyişmələrinin təsirlərini yumşaltma üzrə tədbir və hədəfləri qəbul edilir. Ölkələr iqlim dəyişmələri ilə mübarizənin vacib komponenti kimi uyğunlaşmanı təqdim edir.

## 2013

19-cu TK: ölkələr iqlim dəyişmələri ilə bağlı itki və zərərlərin aradan qaldırılmasına yönələn mexanizm kimi Varşava Beynəlxalq Mexanizmini təklif edir.

## 2014

20-ci TK: ölkələr Paris Sazişi üçün önəmli elementləri özündə ehtiva edən Lima İqlim Dəyişikliyi ilə Mübarizə Çağırışını qəbul edir. İqlimlə bağlı iddialı hədəflər izləmə məqsədi möhkəmlənir.
“Milli səviyyədə müəyyən edilmiş töhfələr”in təqdim olunması.

## 2015

BMT Sammiti: Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin qəbulu.

## 2015

21-ci TK: ölkələr Paris Sazişini qəbul edir.

# Paris Sazişi niyə vacibdir?

## Özünün hədəfi və məqsədlərinə görə

- Ölkələrdə iqlim dəyişmələri ilə mübarizə üçün iddialı hədəflər müəyyən edir.
- Əsrimizdə orta qlobal temperatur artımının 2°C-ni keçməməsi üçün öhdəlikləri təşviq edir və artımı 1.5°C-dək məhdudlaşdırmaq üçün əlavə səylər göstərməyə çağırır.
- Ölkələrin iqlim dəyişikliyinə uyğunlaşma qabiliyyətini gücləndirməyə yönəlir.
- Az tullantılı, iqlimə davamlı inkişaf modellərinə keçid üçün təməl yaradır.
- Məqsədi istixana qazları ilə qazların atmosferdən kənarlaşdırılması arasında tarazlığa nail olmaqdır.

## Öz məzmununa görə

- İqlim dəyişmələrinin təsirləri üzrə **yumşaltma və uyğunlaşma** tədbirlərini təbliğ edir. Bu tədbirlərə davamlılığın artırılması, həssaslığın azaldılması və ekosistemləri və insanları qorumaq üçün istixana qazlarını udmaq qabiliyyətinə malik təbii rezervuarların (mənbələrin) artırılması və qorunub saxlanılması daxildir.
- Orta və uzunmüddətli perspektivdə iqlim dəyişmələrinin təsirinə davamlılığı yaxşılaşdırmaq və təsirli cavabverməni təmin etmək üçün **innovasiya və texnologiyaların ötürülməsini** təbliğ edir.
- İqlim dəyişmələrinin mənfi təsirləri ilə bağlı olan, uyğunlaşmanın artıq mümkün olmadığı zaman baş verən **itki və zərərləri** əhatə edir və bu cür təsirlərə məruz qalan ölkələri dəstəkləməyin vacibliyini qəbul edir.
- Milli səviyyədə müəyyən edilmiş töhfələrin (NDC-lər) icrasını dəstəkləməklə **ölkələr arasında könüllü əməkdaşlıq** üçün mexanizmlər yaradır.



Diqqət! Atmosferə buraxdığımız tullantılarla atmosferdən kənarlaşdırılan qazlar arasında "tarazlıq" yaratmaq kifayət etmir. Biz buraxdığımız qaz tullantılarından daha çox qazları udmalıyıq ki, yalnız tullantılar buraxmaqla məşğul olduğumuz bütün illəri əvəzləyə bilək.



**Yumşaltma (mitiqasiya):** İstixana effektli qaz tullantılarının mənbələrinin azaldılması və ya uducuların (istixana qazlarını udan təbii hövzələr) artırılmasıdır.

**Uyğunlaşma (adaptasiya):** İqlim dəyişmələrinin mənfi təsirlərinin yüngülləşdirilməsi və ya imkanlardan faydalanmaq üçün təbiət və ya insan sistemlərinin faktiki və gözlənilən iqlimə və ya onun təsirlərinə uyğunlaşdırılması prosesidir.

**Milli səviyyədə müəyyən edilmiş töhfələr:** Hər bir ölkənin öz prioritetlərini və imkanlarını nəzərə alaraq milli səviyyədə iqlim dəyişikliyi ilə mübarizə üçün götürdüyü öhdəliklərdir.

## Çünki o, fəaliyyətə, əməkdaşlığa və hesabatlılığa çağırır

**Fəaliyyət:** Qəbul edilən bütün tədbirlər **milli səviyyədə müəyyən edilmiş töhfələrdə (NDC-lər)** öz əksini tapmalıdır. NDC-lər hər bir ölkənin iqlim dəyişikliyi ilə mübarizə üçün həyata keçirməyi qərara aldığı tədbirlərdir. Sazişin məqsədlərinə nail olunması üçün töhfələr yüksək dərəcədə iddialı olmalı, ölkənin prioritetlərini və imkanlarını nəzərə almaqla onun reallıqlarına uyğun olmalıdır.

**Əməkdaşlıq:** Təklif edir ki, inkişaf etmiş ölkələr potensialın gücləndirilməsi və tədbirlər üçün maliyyələşdirmə kimi tədbirlər vasitəsilə Sazişin icrasında inkişaf etməkdə olan ölkələrə dəstək göstərsin.

**Hesabatlılıq:** Hər bir ölkədə iqlim dəyişmələri ilə mübarizəyə aydın strateji baxış, əldə edilmiş irəliləyiş və müxtəlif ölkələrin verdiyi və ya qəbul etdiyi dəstəyi əks etdirən şəffaflıq çərçivəsi yaradır. Bu **şəffaflıq çərçivəsi** inkişaf etməkdə olan ölkələrin potensiallarını nəzərə almaq üçün müəyyən sərbəstliyə malikdir.



Saziş iddialı hədəflər müəyyən edir. Bununla belə, ölkələrin hərəkətə keçməsi könüllü xarakter daşıyır. Vətəndaş cəmiyyətinin, o cümlədən gənclərin və yeniyetmələrin iştirak etmək və milli planların və iqlim hədəflərinin müəyyənləşdirilməsinə cəlb olunmaq hüququndan istifadə etməsi, bu hədəflərə nailolmanı tələb etməsi son dərəcə vacibdir.



## İnsan hüquqları ilə əlaqəsinə görə

Paris Sazişinin icrası Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və 2030-cu il Gündəliyi istiqamətində irəliləyiş üçün son dərəcə vacibdir. Saziş bütün iqlim tədbirlərində insan hüquqlarının qorunmasının və onlara hörmətin təmin edilməsinin vacibliyini qəbul edir. Bu hüquqlara başlıca olaraq aşağıdakılar daxildir: sağlamlıq hüququ, inkişaf, gender bərabərliyi, qadınların səlahiyyətlərinin artırılması və nəsillərarası ədalətlilik, habelə yerli etnik qrupların, yerli icmaların, miqrantların, əlilliyi olan şəxslərin, həssas vəziyyətlərdə olan şəxslərin və uşaqların hüquqları.

## Vətəndaş iştirakının vacibliyinə görə

Saziş iddialı hədəflər müəyyən edir. Bununla belə, ölkələrin hərəkətə keçməsi könüllü xarakter daşıyır.
**Vətəndaş cəmiyyətinin, o cümlədən gənclərin və yeniyetmələrin iştirak etmək və milli planların və iqlim hədəflərinin müəyyənləşdirilməsinə cəlb olunmaq hüququndan istifadə etməsi, bu hədəflərə nailolmanı tələb etməsi son dərəcə vacibdir.**

Sosial tərəfləri inteqrasiya etmək üçün müxtəlif mexanizmlər yaratmaq vacibdir. Ən vacib mexanizmlərdən biri gənclərin QHT-ləridir (YOUNGO (Youth+NGO). Gənclərin QHT-ləri uşaqları və gəncləri UNFCC-də, eləcə də BMT-nin Uşaqlar və Gənclər üzrə Əsas Qrupunda (MGCY) rəsmi qaydada təmsil edir. Gənclər tərəfindən və ya gənclərin özləri üçün yaradılmış çoxsaylı digər təşkilatlar və şəbəkələr də mövcuddur və onların məqsədi gənclərin iqlimlə bağlı qərarlarda iştirakı və cəlb edilməsidir. Ölkənizdə hansı təşkilat və şəbəkələrin mövcud olduğunu öyrənməyi tövsiyə edirik.

# Paris Sazişinin maddələri

1

Sazişin məqsədləri üçün UNFCCC-nin 1-ci maddəsində qeyd edilən anlayışlar tətbiq edilir. Buna əlavə olaraq:

- Konvensiya: BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC)
- Tərəflər Konfransı: Konvensiyanın Tərəflər Konfransı (COP)
- Tərəflər: Sazişdə iştirak edən ölkələr (bu sənəddə tərəfləri “ölkələr” adlandırırıq)

2

Saziş dayanıqlı inkişaf və yoxsulluğun aradan qaldırılması üzrə səylər kontekstində ölkələrin iqlim dəyişmələrinə cavab tədbirlərini gücləndirmək məqsədi daşıyır.

Onun məqsədləri aşağıdakılardır:
1: hazırkı əsrdə qlobal temperatur artımını 2°C-dək məhdudlaşdırmaq və temperatur artımının 1.5°C-dək məhdudlaşdırılması üçün səyləri gücləndirmək;
2: ölkələrin iqlim dəyişmələrinin mənfi təsirlərinə uyğunlaşmaq qabiliyyətini artırmaq;
3: azkarbonlu iqtisadi inkişafa nail olmaq.

Saziş, fərqli milli şəraitlər nəzərə alınmaqla, bərabərlik və ümumi, lakin müxtəlif (diferensial) cavabdehlik və müvafiq imkanlar prinsipini əks etdirməklə həyata keçiriləcəkdir.

3

Ölkələr Sazişə əməl etmək üçün öz milli səviyyədə müəyyən olunmuş töhfələri (NDC-lər) baxımından iddialı olmalı və səylər göstərməlidir. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrin ehtiyacları nəzərə alınmalıdır.

4

Sazişin məqsədinə nail olmaq üçün ölkələr tullantıların pik səviyyəsinə çatmaq və sonra onları sürətlə azaltmaq məqsədini güdməlidir. Məqsəd, istixana qazları və bu cür tullantıları udmaq potensialı arasında balans yaratmaqdır.

Bundan əlavə, hər bir ölkə öz planlaşdırılan NDC-lərini təqdim etməlidir. NDC-lər ölkənin istixana qazlarını azaltmaq üçün görməyi planlaşdırdığı tədbirləri ehtiva etməlidir.

Ölkələrin müştərək məsuliyyətlərinə uyğun olaraq, eyni zamanda onların arasındakı fərqləri və onların imkanlarını nəzərə almaqla, NDC-lərdə iddialılıq tədricən artmalıdır. İnkişaf etməkdə olan ölkələrin buna nail olmasına dəstək göstəriləcək. İstixana qazlarının azaldılması bu uyğunlaşma tədbirlərinin əlavə yüngülləşdirici (mitiqasiya) faydası hesab edilə bilər.

5

Ölkələr uducuları və rezervuarları (istixana qazlarını udan təbii rezervuarları (mənbələri)) qorumalı və artırmalıdır.
Ölkələr, həmçinin meşələrin deqradasiyasını azaltmaq, dayanıqlı idarəçilik yaratmaq və meşə örtüyünü artırmaq üçün stimullaşdırıcı tədbirlər tətbiq edə bilərlər.
Kompleks meşə idarəçiliyi üçün özündə yumşaltma və uyğunlaşma tədbirlərini ehtiva edən alternativ yanaşmalar təklif olunur.



6 Bu maddə NDC-lərin icrası üçün 2 ölkələrarası əməkdaşlıq mexanizmi yaradır. Bu cür əməkdaşlıq könüllü xarakter daşıyır və dayanıqlı inkişafın təşviqi, ətraf mühitin bütövlüyünün və şəffaflığın təmin edilməsi və ölkələrin tədbirlərinin təkrar qeydə alınmasının önlənməsi prinsipi ilə tənzimlənir. 1-ci mexanizm ölkələr arasında istixana qazlarında azalmaların mübadiləsi və ya ötürülməsidir. İkinci mexanizm təsirlərin yumşaldılması, uyğunlaşma, maliyyələşdirmə, texnologiyaların ötürülməsi və potensialın gücləndirilməsi üçün ölkələrarası əməkdaşlığa yönəlir. Bu maddənin mexanizmlərini tənzimləyəcək texniki qaydalarla bağlı danışıqlar davam edir.

**Paris Sazişini anlamaq baxımından ən mürəkkəb maddə 6-cı maddədir. Bu maddə ilə bağlı bilməli olduğunuz ən vacib şey ondan ibarətdir ki, o, Paris Sazişinin arxasındakı təkanverici qüvvədir və inteqrasiyalı, hərtərəfli və balanslı yanaşmalarla, könüllü beynəlxalq əməkdaşlıq vasitəsilə iqlim tədbirlərinin yaradılması üçün mexanizmləri müəyyən edir.**

7 Hər bir ölkə dayanıqlı inkişafa töhfə verməklə eyni zamanda uyğunlaşma proseslərini həyata keçirmək, davamlılığı gücləndirmək və iqlim dəyişikliyinə həssaslığı azaltmaq üçün öz potensialını artırmalıdır. Uyğunlaşma idarəetmənin bütün səviyyələrində bütün insanları cəlb edən bir problemdir. Uyğunlaşma prosesləri şəffaf, inklüziv və genderə həssas olmalı, iştirakçılığı ehtiva etməlidir. Bundan əlavə, onlar elmi məlumatlara və yerli və ənənəvi biliklərə, habelə yerli etnik qrupların biliklərinə əsaslanmalıdır.
Uyğunlaşma insanları, yaşayış vasitələrini və ekosistemləri qorumaq məqsədi daşıyır. Hər bir ölkə planların, proqramların və siyasətlərin tərtib olunması və ya təkmilləşdirilməsi kimi tədbirləri icra edə bilər.
Ölkələr əməkdaşlığı gücləndirməli və inkişaf etməkdə olan dövlətlər, xüsusilə ən həssas vəziyyətdə olanlar üçün uyğunlaşma proseslərinə dəstəyi artırmalıdır. BMT-nin ixtisaslaşmış agentlikləri bu proseslərin icrasında ölkələrin səylərini dəstəkləməlidir.

8 İqlim dəyişmələrinin mənfi təsirləri ilə bağlı olan itki və zərəri önləmək, azaltmaq və aradan qaldırmaq vacibdir. Ölkələr əməkdaşlıq və sadələşdirmə əsasında, Varşava Beynəlxalq Mexanizmi vasitəsilə anlaşma, fəaliyyət və dəstəyi genişləndirməlidirlər.



9 İnkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə həm yumşaltma, həm də uyğunlaşma ilə bağlı tədbirlərin icrasında köməklik göstərmək üçün maliyyə resursları təmin etməlidir. Digər ölkələr isə könüllü əsasda dəstək göstərməyə təşviq edilir. Hər bir ölkənin prioritetlərini nəzərə almaqla, uyğunlaşma və yumşaltma tədbirləri arasında balans saxlanılmalıdır. İnkişaf etməkdə olan ölkələrin, xüsusilə ən həssas vəziyyətdə olan ölkələrin ehtiyacları və üzləşdiyi məhdudiyyətlər də nəzərə alınmalıdır.

Bundan əlavə, inkişaf etmiş ölkələr təmin etdikləri resurslar barədə, inkişaf etməkdə olan ölkələr isə öz irəliləyişi barədə məlumat verməlidir. Bu məlumatlar qlobal məşvərətdə nəzərə alınacaq.

10 Ölkələr iqlim dəyişmələrinə davamlılığı yaxşılaşdırmaq və istixana qazı tullantılarını azaltmaq üçün texnologiyaların hazırlanması və ötürülməsində əməkdaşlığı gücləndirməlidir. Bu, əməkdaşlıq, tədqiqat və işləmələrin gücləndirilməsini, texnologiyalara çıxışın asanlaşdırılmasını (xüsusilə inkişaf etməkdə olan ölkələr üçün) və iqlim dəyişmələrinə səmərəli və uzunmüddətli cavabvermə üçün innovasiyaların sürətləndirilməsini tələb edir.

Ölkələr birgə tədqiqat yanaşmalarını ön plana çıxarmaq üçün maliyyə resursları təmin etməli olacaq. Bu maddə texnologiyaların inkişafı və ötürülməsinin gücləndirilməsini təşviq etmək və asanlaşdırmaq üçün **Texnologiya Mexanizmi** yaradır.



11 Saziş inkişaf etməkdə olan ölkələrin, xüsusilə ən həssas vəziyyətdə olan ölkələrin iqlim dəyişmələrinə qarşı səmərəli tədbir görmək üçün potensial və qabiliyyətini artırmalıdır. Bunun üçün o, texnologiyanın inkişafı, iqlim maliyyəsinə, təhsil və ictimai maarifləndirmənin müvafiq aspektlərinə çıxışı asanlaşdırmalıdır.

Potensialın artırılması iştirakçılığı ehtiva edən, çoxsahəli və gender aspektlərini nəzərə alan proses olmalıdır. Bütün ölkələr inkişaf etməkdə olan ölkələrin potensialının artırılması istiqamətində əməkdaşlıq etməlidir. Regional, ikitərəfli və çoxtərəfli yanaşmalar vasitəsilə inkişaf etməkdə olan ölkələrə dəstək təmin edən inkişaf etmiş ölkə bu barədə məlumat verməlidir. Dəstəyi qəbul edən ölkə aldığı dəstək və öz potensialının artırılması prosesi barədə məlumat verməlidir.

12 Ölkələr iqlim dəyişmələri məsələləri ilə əlaqədar təhsil, təlim, ictimai maarifləndirmə, ictimai iştirak və ictimaiyyətin məlumata çıxışının yaxşılaşdırılması istiqamətində əməkdaşlıq etməlidir.

13 Bu maddə iqlim dəyişmələri ilə mübarizə istiqamətində görülmüş tədbirlərin aydın mənzərəsini təqdim etmək üçün şəffaflıq çərçivəsi yaradır və inkişaf etməkdə olan ölkələrin potensialının nəzərə alınması baxımından çevikliyə zəmin yaradır. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrə şəffaflığın həyata keçirilməsi üzrə potensialın artırılması üçün dəstək göstəriləcək.

Bu maddədə hər bir ölkənin təqdim etməli olduğu hesabatlar müəyyən edilir. Təqdim olunan bu məlumatları nəzərdən keçirən ekspertlər qrupu hər bir ölkənin təkmilləşdirməli olduğu məqamları vurğulayır və eyni zamanda şəffaflığı təmin edir. İnkişaf etmiş ölkələr digər ölkələrə göstərdikləri dəstəyə əsasən qiymətləndirilir.

14 Bu Sazişin məqsəd və hədəflərinə nail olmaq istiqamətində irəliləyişi qiymətləndirmək üçün dövri olaraq qlobal məşvərət keçiriləcək. Ədalətlilik və mövcud olan qabaqcıl elmi biliklər fonunda, yumşaltma və uyğunlaşma tədbirləri, icra vasitələri və təmin edilmiş dəstək nəzərə alınacaq. Qlobal məşvərət həm də digər ölkələrə öz tədbirlərini hansı istiqamətlərdə təkmilləşdirə biləcəklərini öyrənməkdə kömək edir.

15 Ekspertlər komitəsi Sazişin icrasını və həyata keçirilməsini asanlaşdıracaq. Ekspertlər komitəsi ölkələrin imkanlarına və vəziyyətinə diqqət yetirəcək.

16 Tərəflər Konfransı ölkələrin əsas qərarverici müşavirəsidir və Sazişi imzalamış ölkələrin ali orqanı kimi fəaliyyət göstərir. Sazişə tərəf olmayan, lakin Konvensiyanın tərəfləri olan ölkələr, o cümlədən Sazişə xitam vermiş ölkələr Tərəflər Konfransının müşavirələrində müşahidəçi qismində iştirak edə bilərlər. BMT-nin agentlikləri və ya üzv dövlətləri, eləcə də Atom Enerjisi üzrə Beynəlxalq Agentlik müşahidəçi qismində iştirak edə bilər. Bu Sazişdə əhatə olunan məsələlər üzrə ixtisaslaşan və katibliyi müşahidəçi qismində təmsil edilmək niyyəti barədə məlumatlandırmış milli və ya beynəlxalq, hökumət və ya qeyri-hökumət təşkilatları da müşahidəçi ola bilərlər, bir şərtlə ki, Tərəflər buna etiraz etmir.

17 Bu maddə Konvensiyanın Katibliyini Sazişin katibliyi kimi təyin edir. Katiblik əlavə olaraq, Tərəflər Konfransı tərəfindən müəyyən edilmiş funksiyaları yerinə yetirəcək.



18-19 Bu maddələr Sazişə dəstək üçün iki orqan yaradır: **Elmi və Texnoloji Məsləhət üzrə Yardımçı Orqan və Konvensiyanın Həyatakeçirmə üzrə Yardımçı Orqanı;** Tərəflər Konfransı onların funksiyalarını müəyyən edir. Sazişin müşahidəçi ölkələri yardımçı orqanların müşavirələrində iştirak edə bilər.

20-24 Bu maddələr Sazişin qüvvəyə minməsi ilə bağlıdır. Bundan əlavə, onlar göstərir ki, Konvensiyanın maddələri müvafiq zəruri dəyişikliklərlə Sazişə tətbiq oluna bilər.

25 Hər bir ölkə Sazişdə 1 səsə malikdir.

26 Bu Sazişin saxlanmasını Birləşmiş Millətlər Təşkilatının Baş katibi həyata keçirir.

27 Saziş tam şəkildə tətbiq olunur, onun hər hansı maddəsi istisna edilə bilməz.

28 Ölkələr Saziş qüvvəyə minəndən 3 il sonra, Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə bildiriş təqdim etməklə, Sazişə xitam verə bilər. Konvensiyaya xitam verən hər hansı ölkə Sazişə də xitam vermiş hesab olunur. Hər hansı belə xitamvermə bildirişdən və ya bildirişdə göstərilən tarixdən 1 il sonra qüvvəyə minir.

**2020-ci ilin iyun ayınadək, Sazişə xitam vermiş yeganə ölkə ABŞ-dır.**

29 Saziş aşağıdakı dillərdə mövcuddur: ingilis, ispan, rus, çin, fransız və ərəb.

# Mənbələr


Rodriguez, Sebastián, 'Un artículo del Acuerdo de París está causando caos en las negociaciones climáticas de la ONU', Ojo al Clima, 2019, <https://ojoalclima.com/un-articulo-del-acuerdode-parisesta-causando-caos-en-las-negociaciones-de-la-onu/>, baxış tarixi: 20 aprel 2020.

BMT, Pariz Saizşinin qəbulu, İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Qətnaməsi, FCCC/CP/2015/L.9, BMT, Paris, 12 dekabr 2015, <https://unfccc.int/resource/docs/2015/cop21/eng/l09r01.pdf>, baxış tarixi: 13 aprel 2020.

United Nations, 'A Guide to the UNFCCC and its Processes', United Nations, n.d., <https://unfccc.int/resource/bigpicture/#content-the-paris-agreemen>, baxış tarixi: 16 aprel 2020.